www.ebi.org.az
№08 (80) 2012

MƏNZİL İNTERYERİ

# əMLAK BAZARI

TİKİNTİ · MEMARLIQ · DİZAYN · İNTERYER · ANALİTİKA · ALQI-SATQI · QİYMƏTLƏNDİRMƏ



Tikinti layihələri üçün həll yolları təchiz edirik

Holcim

İnşaatda Dünya Təcrübəsi

# Holcim - Bünövrədən zirvəyə inamla!



Sosial istiqamətdə daima fəal olmuş Holcim (Azərbaycan) ASC Azərbaycanın biznes mühitində Korporativ Sosial Məsuliyyət (KSM) ideyasının ilk təbliğatçılarından biridir. KSM fəaliyyəti Holcim şirkəti üçün sadəcə aksiya olaraq deyil, ümumiyyətlə biznes fəaliyyətinin əsas prinsipi kimi əhəmiyyət daşıyır. Şirkətin həyata keçirdiyi KSM proqramlarının əsas məqsədi sosial, iqtisadi və ekoloji layihələr vasitəsilə Azərbaycanın davamlı inkişafına dəstək olmaqdan və cəmiyyətin uğurlu gələcəyinin bünövrəsini qoymaqdan ibarətdir.



Holcim-in Azərbaycanda həyata keçirdiyi sosial proqramlar çoxşaxəlidir. Şirkət 2000-2012-ci illər ərzində yoxsulluğun azaldılması, əhali üçün təhsil-tədris proqramlarının keçirilməsi və vətəndaş cəmiyyətinin inkişafı istiqamətlərində, həmçinin ictimai obyektlərin təmiri və bərpası sahəsində 370-ə yaxın qısa və uzunmüddətli layihələr həyata keçirmişdir. Bu sosial layihələrə ümumilikdə 5'000'000 AZN vəsait xərclənmişdir.

2010-2015-ci illər üçün qəbul olunmuş KSM strategiyasına müvafiq olaraq, əsas fəaliyyət istiqamətləri kimi təlim-tədris təşəbbüsləri, Holcim Fondunun keçirdiyi "Holcim Awards" müsabiqəsi haqqında məlumatların yayılması, Davamlı İnkişaf və quruculuq proqramlarına dəstəyin göstərilməsi seçilmişdir.

Holcim (Azərbaycan) ASC xüsusilə son illərdə bir sıra təqdirəlayiq sosial layihələr həyata keçirmişdir. Bu layihələrdən biri kimi, 2011-ci ilin avqust ayında Sahil və Ümid qəsəbəsi sakinlərinin iş tapma ehtiyaclarının ödənilməsi məqsədilə Məş-ğulluq Məsləhət Mərkəzi yaradılmışdır. Mərkəz dövlət qurumları ilə özəl sektor arasında əlaqələr yaratmaqla vakant iş yerləri barədə məlumatlar toplayır, seminarlar təşkil edərək işsizləri məlumatlandırır və məşğulluq məsələləri ilə bağlı təlimlər təşkil edir. Fəaliyyət göstərdiyi ilk 10 ay ərzində Mərkəzin xidmətindən 667 vətəndaş yararlanmışdır. Ünvanlı sosial yardımlardan yararlanmaq üçün müraciət etmiş 335 vətəndaşdan 55-i yardım almış, Mərkəzin təlimlərində iştirak etmiş 523 nəfərdən 84 nəfəri işə düzəlmişdir.

Bundan əlavə, qonşu icmaların tələblərini nəzərə alaraq, Holcim (Azərbaycan) ASC 2012-ci ilin sentyabr ayında Ümid qəsəbəsində Gənclərin İnkişafı Mərkəzi inşa edilməsinə qərar verilmişdir. Həmin Mərkəz gənclər üçün perspektivlərin yaradılması sahəsində vacib məsələlərin həlli ilə məşğul olan nadir bir təşkilat olacaq. İlkin mərhələdə Mərkəzdə bir sıra xidmətlərin təqdim edilməsi nəzərdə tutulur. Bu xidmətlərə yeni kitabxana, ingilis dili və kompüter kurslarının təşkili, rəhbərlik proqramları, həmçinin rəssamlıq və tikiş dərnəklərinin açılması daxildir. Gənclərin İnkişafı Mərkəzinin təməlqoyma mərasimi 2012-ci il sentyabr ayının 6-da keçiriləcək. Biz inanırıq ki, bu layihə gənclərin sosial həyatında mühüm rol oynayacaq, onların inkişafına öz töhfəsini verəcək və şirkətin sosial sahədə həyata keçirdiyi uğurlu layihələr siyahısında özünəməxsus yer tutacaq.



**Əlaqə rekvizitləri:**

| | |
|---|---|
| Telefon: | 012-441 88 88 |
| Faks: | 012-446 18 81 |
| Qaynar xətt: | 012-446 29 05 |
| Web: | www.holcim.az |


Holcim
Qaradağ Spesial Sement
CEM II/B-P 32,5 R
AZS 411:2010 (EN 197-1:2000) standartı əsasında
Holcim
Qaradağ Optimal Sement
CEM II/B-L 32,5 R
AZS 411:2010 (EN 197-1:2000) standartı əsasında
Ümumi təyinatlı sement
40kq
Qaradağ Sement artıq Holcim oldu
İnşaatda Dünya Təcrübəsi
Holcim